# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№: 05 (2012) 06 fevral 2026-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiyməti : 50 qəpik

# Ən uca zirvədə onun da adı var



**Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük İkinci Qarabağ müharibəsində minlərlə Vətən övladı doğma torpaqlarımızın hər qarışı uğrunda son damla qanına qədər döyüşdü. Döyüş meydanında misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şəhidlərimizin qisasını aldı, onların qanı yerdə qalmadı.**

Vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksələn oğullarımızdan biri də gizir İsmayılov Tahir Niyazi oğludur.

İgid Vətən oğlunun bu günlərdə doğum günü idi. Yaşasaydı qəhrəman şəhidimizin 38 yaşı tamam olacaqdı.

Şəhid Tahir İsmayılov 1988-ci il yanvarın 30-da Qazax rayonunun Sofulu kəndində anadan olub. 1994-cü ildə Qazax şəhər Mehdi Hüseyn adına Humanitar və Təbiət Fənlər Təmayüllü Məktəb-Liseyin 1-ci sinifinə daxil olub, 2003-cü ildə həmin məktəb-liseyin 9-cu sinifini bitirib. 2003-cü ildə Qazax Dövlət Sosial-İqtisadi Kollecinə daxil olmuş və 2006-cı ildə həmin kolleci bitirmişdir. 2006-cı ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılıb. 2007-ci il tarixdə həqiqi hərbi xidməti başa vurub. 31.01.2009-cu il tarixdən 11.04.2009-cu il tarixə qədər Bakıda Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (TTM) hərbi kursantlıq kursunda hərbi kursantlıq oxuyub, 16.04.2009-cu il tarixdən 23.08.2012-ci il tarixə kimi N saylı hərbi hissədə gizir olaraq xidmət edib. 26.04.2014-cü il tarixdən yenidən hərbiyə qayıdaraq xidmət etməyə başlayıb. N saylı hərbi hissənin 1-ci motoatıcı bölüyün 2-ci tağım komandirinin müavini gizir Tahir İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli-Cəbrayıl-Xocavənd-Hadrut rayonları istiqamətində gedən döyüşlərdə vuruşub. Qubadlının azad olunması uğrunda gedən döyüşdə isə şəhid olub. Şəhid gizir Tahir İsmayılov oktyabrın 26-da Qazax rayonunun Xanlıqlar kənd qəbiristanlığında izdihamla dəfn edilib.

Ailəliydi. Niyazi və Uğur adlı iki azyaşlı oğlan övladı yadigar qalıb.

Xidməti dövrü öz nizam-intizamı, verilən tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməsi ilə fərqlənib, bir sıra medallarla təltif edilir. Tahir İsmayılovun sinəsini 2018-ci ildə təltif olunduğu "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalları bəzəyirdi.

Bütün şəhidlərimiz kimi gizir Tahir İsmayılovun da xatirəsi hər zaman əziz tutulur. Şəhid gizirimizin göstərdiyi igidlik cənab Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilib. O, ölümündən sonra ölkə Prezidentinin Sərəncamlarına əsasən, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Qazax Rayon İcra Hakimiyyəti Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə şəhidimizin adı verilib.

Qazax şəhərinin Hüseyn Arif küçəsində "Hərbi şəhərcik" adlanan yaşayış massivində hərbçi ailələrinin yaşadığı binaların həyətində şəhidlərin adını əbədiləşdirən bulaqda, eyni zamanda şəhərin Heydər Əliyev prospektində vaxtilə təhsil aldıqları Qazax şəhər Mehdi Hüseyn adına Humanitar və Təbiət Fənlər Təmayüllü Məktəb-Liseyin həyətində şəhid məzunların xatirəsinə tikilən bulaqda igid Vətən oğlunun da adı var.